17 yanvar, 2014

# DÖVLƏT VƏSAİTLƏRİ ÜZƏRİNDƏ

# KƏNAR NƏZARƏT

## KONFRANSI

JW Marriott Abşeron hotel

# GÜNDƏLİK

(İşçi dillər: Azərbaycan, İngilis)

| | |
|---|---|
| 09.30 – 10.00 | Qeydiyyat, Çay, Qəhvə |
| 10.00 – 10.30 | Açılış. *Sabit Bağırov, Sahibkarlığın və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu*<br>Salamlama:<br>- *Vahid Əhmədov, Milli Məclisin üzvü, Parlamentin İqtisadi Siyasət Komitəsi*<br>- *Federiko Berna, Avropa İttifaqı Bakı Nümayəndəliyinin Əməkdaşlıq Departamentinin rəhbəri*<br>- *Faiq Nəcəfov, Azərbaycan Respublikası Hesablama Palatasının Hüquq və dövlət qulluğu şöbəsinin müdiri*<br>- *Olaf Heydelbax, Avropa Birliyinin Azərbaycandakı Nümayəndəliyinin proqram rəhbəri* |
| 10.30 – 11.15 | 1-ci Panel: Kənar nəzarətin həyata keçirilməsi<br>Sədr: *Vahid Əhmədov, Milli Məclisin üzvü, Parlamentin İqtisadi Siyasət Komitəsi*<br><br>Məruzəçilər:<br>- Kənar nəzarətin həyata keçirilməsi praktikasının təhlili və tövsiyələr, *Rəşad Həsənov, İqtisadi və Sosial İnkişaf Mərkəzi;*<br>- *Dövlət vəsaitlərinə dair parlament müzakirələrinin təhlili və tövsiyələr, Vüqar Bayramov, İqtisadi və Sosial İnkişaf Mərkəzi;*<br><br>Sual-cavab |
| 11.15 – 11.45 | Qəhvə, çay |
| 11.45 – 13.00 | 2-ci Panel: Qanunvericiliyin təkmilləşdirilməsi<br>Sədr: *Faiq Nəcəfov, Azərbaycan Respublikası Hesablama Palatasının Hüquq və dövlət qulluğu şöbəsinin müdiri*<br><br>Məruzəçilər:<br>- *İctimai vəsaitlər üzərində kənar nəzarət: beynəlxalq təcrübə, Zöhrab İsmayıl və Kənan Aslanlı, "Azad İqtisadiyyata Yardım" İctimai Birliyi;*<br>- *Qanunvericiliyin təhlili nəticələri və tövsiyələr, Qubad İbadoğlu, İqtisadi Tədqiqatlar Mərkəzi*<br>- *Hesablama Palatasının tövsiyyələrə dair rəyi, Faiq Nəcəfov, Azərbaycan Respublikası Hesablama Palatasının Hüquq və dövlət qulluğu şöbəsinin müdiri*<br><br>Sual-cavab |
| 13.00 – 13.15 | Yekun söz. *Sabit Bağırov, Sahibkarlığın və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu* |
| 13.15 – 14.30 | Nahar |

**Sabit BAĞIROV**



1971-ci ildə Azərbaycan Dövlət Neft Akademiyasını bitirmişdir. 1977-1992-ci illərdə AZNEFTKİMYAMAŞ Konsernində çalışmışdır. 1992-1993-cü illərdə Strateji Proqramlar üzrə Dövlət Müşaviri və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti vəzifələrində işləmişdir. 1993-1994-cü illərdə Azərbaycan Respublikasının prezidenti yanında Ali Attestasiya Komissiyasının departament rəhbəri vəzifəsində çalışmışdır. 1995-ci ildən Sahibkarlığın və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondunun rəhbər vəzifələrində çalışır. 1994-2004-cü illərdə Xəzər enerji layihələri üzrə müxtəlif şirkətlərdə məsləhətçi vəzifəsində işləmişdir. 1998 və 2004-cü illərdə Dünya Bankının Azərbaycan enerji layihələrində məsləhətçi olmuşdur. Bir sıra beynəlxalq və milli vətəndaş cəmiyyəti birliklərinin təsisçisi, və rəhbər orqanlarının üzvü olmuşdur. Texnika elmləri üzrə fəlsəfə doktorudur.

**Vahid ƏHMƏDOV**



1965-1971-ci illərdə Azərbaycan Politexnik İnstitutunda təhsil almışdır. 1989-1992-ci illərdə Almaniyada Bon Menecment İnstitutunu bitirərək, menecment-iqtisadçı beynəlxalq diplomuna layiq görülmüşdür.
Peşə fəaliyyəti zamanı Şmidt (indiki Səttərxanadına) maşınqayırma zavodunda (1967-1977), Bakı Radio zavodunda (1977), Bakı Dəzgahqayırma İstehsalat Birliyində (1981-1983), "Bakı fəhləsi" adına maşınqayırma zavodunda (1983-1986), Keşlə maşınqayırma zavodunda (1986) və "Bakneftmaş" İstehsalat Birliyində (1989) müxtəlif vəzifələrdə işləmişdir.
1992-1993-cü illərdə Azərbaycan Respublikası Baş nazirinin müavini və birinci müavini vəzifəsində çalışmışdır. Azərbaycan Ali Sovetinin deputatı (1990-1995); Azərbaycan Respublikası Milli Məclisinə 52 saylı Quba seçki dairəsindən seçilmiş III və IV çağırış millət vəkilidir. 2010-cu ildən Milli Məclisin İqtisadi siyasət komitəsinin üzvüdür. Vahid Əhmədov texnika doktorudur və 300-ə yaxın elmi məqalənin müəllifidir. Ailəlidir, iki övladı var.

**Faiq NƏCƏFOV**



Faiq Nəcəfov 1997-ci ildə Bakı Dövlət Universitetinin tarix fakultəsini, 2003-cü ildə Bakı Dövlət Universitetinin beynəlxalq hüquq fakültəsini, 2006-cı ildə isə Azərbaycan Dövlət İqtisad Universitetinin maliyyə və kredit fakültəsini bitirmişdir.
1993-1997-ci illərdə Azərbaycan Su Tikinti Konserni Birləşmiş Tikinti Sənaye Müəssisəsində fəhlə, 1997-2000-ci illərdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Xətai rayon Polis İdarəsində polis nəfəri işləmişdir. 2000-2007-ci illərdə Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Hüquq şöbəsində hüquqşünas, baş hüquqşünas, baş məsləhətçi, sektor müdiri, şöbə müdirinin müavini vəzifələrində çalışmışdır.
2007-ci ildən Azərbaycan Respublikası Hesablama Palatasının Hüquq və dövlət qulluğu şöbəsinin müdiri vəzifəsində işləyir. Fəaliyyətində xüsusi xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 2011-ci ildə "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edilmişdir. Ailəlidir, bir övladı var.

**Federiko BERNA**



Cənab Federiko Berna İtaliyanın Florensiya Universitetində tropik və subtropik kənd təsərrüfatı üzrə təhsil almışdır. O, Avropa İttifaqının mərkəzi ofisi və qurumun digər beş müxtəlif ölkələrdə yerləşən nümayəndəliklərində (Kolumbiya, Nikaraqua, Gürcüstan, Yamayka, Azərbaycan) çalışmışdır. Beynəlxalq əməkdaşlıq proqramları üzrə 19 illik iş təcrübəsi vardır, üçüncü ölkələrdə Avropa İttifaqının inkişaf və əməkdaşlıq layihələrinin idarə edilməsi üzrə 14 illik peşəkar təcrübəyə malikdir. 2011-ci ilin sentyabr ayında Avropa İttifaqının Azərbaycan Respublikasındakı Nümayəndəliyində əməkdaşlıq bölməsinin rəhbəri vəzifəsində çalışır.

**Olaf Heydelbax**



Dr Olaf Heidelbax Almaniyanın Hohenheym və Norveç universitetində kənd təsərrüfatı iqtisadiyyatı və inkişafının tədqiqi üzrə təhsil almışdır. 2007-ci ildə o, Almaniyanın Martin Lüter Universitetinində Qazaxıstanın kənd təsərrüfatı sektorunda innovativ risklərin idarə edilməsi alətləri üzrə doktorluq dissertasiyasını müdafiə etmişdir. 2007 və 2012-ci illərdə o, Avropa İttifaqının Qırğızıstan Respublikasındakı Nümayəndəliyində çalışmış, demokratiya və yaxşı idarəetmə, təhsil, eləcə də vətəndaş cəmiyyəti və hökumət institutlarının iştirakı ilə kənd yerlərinin inkişafı üzrə Mərkəzi Asiyada çoxsaylı layihələr və sektor siyasəti üzrə yardım proqramlarını idarə etmişdir. Cənab Heldeybax 2012-ci ilin sentyabr ayından Avropa İttifaqının Azərbaycan Respublikasındakı Nümayəndəliyində kənd təsərrüfatı və kənd təsərrüfatının inkişafı, büdcənin dəstəklənməsi, ictimai vəsaitlərin idarə edilməsi üzrə proqram meneceri vəzifəsində çalışır.

**Qubad İBADOĞLU**



Qubad İbadoğlu iqtisadçıdır. O, əvvəllər İqtisadi Tədqiqatlar Mərkəzində çalışmışdır, hazırda isə İctimai Təşəbbüslər Mərkəzinin sədridir.

Cənab İbadoğlu bir sıra ölkədaxili və beynəlxalq şəbəkələrdə təmsil olunur. O, Azərbaycan Beyin Mərkəzləri Alyansının, Mədən Sənayesində Şəffaflıq Təşəbbüsü üzrə Çoxtərəfli Qrupun, Milli Büdcə Qrupunun İdarə Heyətinin, Azərbaycan üzrə Avro-İnteqrasiya Milli İctimai Komitəsinin, Vətəndaş Cəmiyyətini Müdafiə Komitəsinin İdarə Heyətinin və ABŞ təhsilli Azərbaycan Məzunlar Assosiasiyasının üzvüdür, eləcə də vətəndaş cəmiyyətinin nümayəndəsi olaraq Mədən Sənayesində Şəffaflıq Təşəbbüsünün İdarə Heyətində təmsil olunur.

**Vüqar BAYRAMOV**



Vüqar Bayramov iqtisadiyyat üzrə fəlsəfə elmləri doktorudur. O, 2002-2003-ci illərdə Vaşinqton Universitetində (ABŞ) müəllim kimi çalışmışdır. Cənab Bayramov 2010-cu ildə İordaniya Kral Strateji Araşdırmalar Mərkəzi tərəfindən dünyanın ən nüfuzlu 500 müsəlmanı sırasına daxil edilib.

O, hazırda Avropa İttifaqının Şərq Tərəfdaşlığı Vətəndaş Cəmiyyəti Forumunun (ŞT VCF) həmsədri və Azərbaycan Milli Platformasının kordinatorudur, 2011-2012-ci illərdə isə ŞT VCF-nun İqtisadi İnteqrasiya və Avropa İttifaqının Siyasətlərinə Uyğunlaşma üzrə İşçi Qrupunun koordinatoru olmuşdur.

İqtisadi və Sosial İnkişaf Mərkəzinin (www.cesd.az) sədri olaraq cənab Bayramov makro və mikro iqtisadiyyat, o cümlədən yerli hökumət, bələdiyyələrin inkişafı, dövlət büdcəsinin şəffaflığı və digər sahələr üzrə müxtəlif araşdırmalar aparmışdır

**Zöhrab İSMAYIL**



Zöhrab İsmayıl iqtisadçıdır. O, Azad İqtisadiyyata Yardım İctimai Birliyinin sədridir. 1993-cü ildə Azərbaycan Dövlət Neft Akademiyasını bitirib. Eyni zamanda o, Mədən Sənayesində Şəffaflıq Təşəbbüsü və Milli Büdcə Qrupunun İdarə Heyətinin üzvüdür. Onun əsas tədqiqat sahələri ictimai maliyyə, iqtisadi diversifikasiya və iqtisadi azadlıq məsələlərini əhatə edir.

**Kənan ASLANLI**



Kənan Aslanlı Azərbaycanın maliyyə, makroiqtisadi, ticarət və enerji siyasəti məsələləri üzrə ekspertdir. O, ABŞ-da yerləşən Beynəlxalq Büdcə Tərəfdaşlığı, o cümlədən Açıq Hökumət Tərəfdaşlığı üzrə qurumların yerli tədqiqatçısıdır. O, Azərbaycan-Türkiyə İş Adamları Birliyi, Azad İqtisadiyyata Yardım İctimai Birliyi və Bremen Universitetinin nəzdində fəaliyyət göstərən Şərqi Avropa Araşdırmaları üzrə Tədqiqat Mərkəzi ilə sıx əməkdaşlıq edir. O, enerqetika və inkişaf etməkdə olan bazarlar mövzusunda Mərkəzi Avropa Universiteti (Budapeşt, Macarıstan), eləcə də Jiangxi Maliyyə və İqtisadiyyat Universiteti (Nanchang, Çin) tərəfindən təşkil olumuş qısamüddətli kurslarda iştirak etmişdir.

**Rəşad HƏSƏNOV**



Rəşad Həsənov 1998-2004-cü illərdə Azərbaycan Kooperasiya Universitetinin Beynəlxalq Ticarət fakultəsində tədris alıb.

İqtisadiyatın müxtəlif sahələrində biznes fəaliyyəti ilə məşğul olub. Hazırda isə İqtisadi və Sosial İnkişaf Mərkəzində iqtisadçı ekspert vəzifəsində çalışır. “AZƏRBAYCANDA İPOTEKA SİSTEMİ: REAL VƏZİYYƏTİN TƏHLİLİ VƏ TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ” və “Yerli iqtisadiyyatda rəqabətlilik – sektorlar üzrə siyasətlərin qiymələndirilməsi” adlı kitabın həmmüəllifidir. Ailəlidir, iki övladı var.